## 21 May Dialoq və İnkişaf naminə Ümumdünya Mədəni Müxtəliflik Günüdür

**21 May Dialoq və İnkişaf naminə Ümumdünya Mədəni Müxtəliflik Günüdür. Bu gün insanlığın bir-birinə qarşı dözümlülüyünün, fərqliliklərin qəbul edilməsinin və bu fərqliliklərdən birgə zənginliyin yaranmasının təntənəsidir. 2001-ci ildə UNESCO tərəfindən qəbul edilən "Mədəniyyətlərin müxtəlifliyinə dair" Bəyannamə, 2003-cü ildə isə BMT Baş Assambleyasının bu tarixi xüsusi gün kimi təsis etməsi beynəlxalq ictimaiyyətin mədəni müxtəlifliyin qorunmasına verdiyi önəmin bariz göstəricisidir. Bu gün dünyanın müxtəlif guşələrində ayrı-ayrı millətlərin bir arada yaşaya bilməsi qarşılıqlı hörmət, anlayış və mədəni dialoq ehtiva edir. Məhz bu səbəbdən sənəddə açıq şəkildə qeyd olunur ki, sülh yalnız mədəniyyətlərin və xalqların müxtəlifliyinin tanınması və qorunması ilə mümkündür.**



# Sülh, həmrəylik və qarşılıqlı hörmətin simvolu

Azərbaycan bu sahədə nümunəvi mövqe sərgiləyən ölkələrdən biridir. Tarixin sınaqlarından keçmiş bu torpaqlarda əsrlər boyu fərqli dinlərə, dillərə, adət-ənənələrə sahib insanlar birgə, yanaşı yaşayıblar. Təsadüfi deyil ki, bu gün multikulturalizm Azərbaycanda dövlət siyasətinə, eyni zamanda xalqımızın yaşam tərzinə çevrilmiş bir dəyərdir. Azərbaycanın 2010-cu ildə qoşulduğu UNESCO-nun "Mədəni özünüifadə müxtəlifliyinin qorunması və təşviqi haqqında" Konvensiyası ölkənin beynəlxalq öhdəliklərini də aydın şəkildə ortaya qoyur. Ölkəmizdə bu prinsiplər kağız üzərində qalmır, real tədbirlər, layihələr, festivallar vasitəsilə həyatın bütün sahələrinə sirayət edir.

Mədəniyyət Nazirliyinin təşəbbüsü ilə təşkil olunan "Azərbaycan - doğma diyar" adlı incəsənət festivalları - 2006, 2008, 2011, 2014 və 2016-cı illərdə baş tutmuş bu tədbirlər azsaylı xalqların mədəni irsinin təbliği baxımından mühüm əhəmiyyət daşıyır. Həmin tədbirlər bir daha sübut etdi ki, Azərbaycanda milli azlıqlar və etnik qruplar mədəniyyətin zəngin palitrasında öz layiqli yerini tuturlar. Bu yanaşmanın ən təntənəli ifadəsi bu yaxınlarda Şuşada keçirilən "Xarıbülbül" musiqi festivalı oldu. Festival çərçivəsində təqdim olunan "Azərbaycan musiqisində multikulturalizm" adlı konsert proqramı respublikamızın multikultural mahiyyətini bütün dünyaya nümayiş etdirən mədəni diplomatiya nümunəsi idi.

Bu gün Azərbaycanda 20-dən çox xalqın nümayəndəsi birgə yaşayır, işləyir, yaradır. Onlar dövlət tədbirlərində, bayramlarda, musiqi və incəsənət festivallarında bir araya gəlirlər. Bu, cəmiyyətin öz içindən gələn, illərlə formalaşmış təbii birgəyaşayış mədəniyyətidir.

2013-cü ildə UNESCO və BMT-nin Sivilizasiyalar Alyansı birləşərək dünya ictimaiyyətinə yönəlik mühüm bir mesaj verdi: "Bir iş gör!". Bu sadə, lakin dərin mənalı şüar altında başlanan qlobal kampaniya, Dialoq və İnkişaf naminə Dünya Mədəni Müxtəliflik Günü çərçivəsində həyata keçirilərək, hər bir fərdi və təşkilatı konkret addımlar atmağa təşviq etdi. Məqsəd mədəniyyətlərarası dialoqu təşviq etmək, müxtəlifliyi yalnız ideya kimi deyil, gündəlik həyatda tətbiq edilən dəyərə çevirmək idi. Bu təşəbbüs bir daha göstərdi ki, mədəni müxtəlifliyin qorunması hökumətlərin, beynəlxalq təşkilatların və ya mədəniyyət nazirliklərinin işi olmaqla yanaşı, hər bir fərdin, məktəbin, qeyri-hökumət təşkilatının, ailənin və cəmiyyətin bütövlükdə öhdəsinə düşən bir məsuliyyətdir. Hər bir sadə addım - müxtəlif mədəniyyətlərin musiqisini dinləmək, müxtəlif dillərdə danışan insanlara hörmətlə yanaşmaq, fərqli adətləri öyrənmək və paylaşmaq bu kampaniyanın ruhunu yaşadır.

2015-ci ildə Birləşmiş Millətlər Təşkilatı sentyabr ayında Gündəlik, dekabrda isə "Mədəniyyət və Davamlı İnkişaf" üzrə qətnamə qəbul etməklə bəşəriyyətin gələcəyinə dair aydın və uzunmüddətli baxış ortaya qoydu. Bu sənədlər bir daha göstərdi ki, mədəni müxtəliflik dayanıqlı inkişafın təməl daşıdır. Bu tarixdən etibarən 21 May - Dialoq və İnkişaf Naminə Ümumdünya Mədəni Müxtəliflik Günü əvvəlkindən də böyük aktuallıq qazandı. Çünki artıq bu gün təkcə fərqli xalqların mədəniyyətlərini qeyd etməklə deyil, dayanıqlı gələcək üçün mədəniyyətlərin rolunu gücləndirir.

Müasir dünyanın qarşısında duran əsas çağırışlardan biri sülh və qlobal təhlükəsizliyin təmin olunmasıdır. Bu məqsədə çatmaq üçün yalnız diplomatik danışıqlar kifayət etmir. Eyni zamanda mədəniyyətlərarası dialoq, xalqlar arasında qarşılıqlı hörmət və anlayışın formalaşdırılması da zəruri şərtlər sırasındadır. Məhz bu məqamda Azərbaycan öz təşəbbüsləri ilə önə çıxır və qlobal dialoqun təşviqində fərqlənən bir nümunəyə çevrilir. Ötən il may ayında Bakıda keçirilən VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu bunun ən parlaq sübutudur. "Sülh və qlobal təhlükəsizlik naminə dialoq" şüarı ilə keçirilən bu tədbirdə 110 ölkənin nümayəndəsinin iştirakı göstərdi ki, dünya ictimaiyyəti Azərbaycanın sülhsevər çağırışlarına biganə deyil. Forumda mədəniyyətlə yanaşı, insan hüquqları, dinlərarası münasibətlər, gender bərabərliyi, qaçqınlar və sosial ədalət kimi qlobal mövzular müzakirə olundu. Bu isə Azərbaycanın təşəbbüslərinin yalnız regional deyil, universal xarakter daşıdığını göstərir.

Azərbaycanın bu istiqamətdəki sistemli fəaliyyətinin əsas sütunlarından biri isə şübhəsiz ki, Bakı Prosesidir. Prezident İlham Əliyevin təşəbbüsü ilə 2008-ci ildə əsası qoyulan bu platforma müxtəlif mədəniyyətlərin, dinlərin və cəmiyyətlərin nümayəndələrini eyni masa arxasında birləşdirərək dialoqu praktik əməkdaşlığa çevirən unikal bir nümunəyə çevrilib. İndiyədək 180 ölkədən 10 mindən artıq iştirakçını qəbul edən Bakı Prosesi çərçivəsində keçirilən 250-dən artıq tədbir dünya miqyasında böyük rezonans doğurub.

21 May - Dialoq və İnkişaf Naminə Dünya Mədəni Müxtəliflik Günü münasibətilə Azərbaycan dünyaya bir daha göstərir: həqiqi sülhə və davamlı inkişafa yalnız qarşılıqlı anlaşma, hörmət və mədəniyyətlərarası dialoqla nail olmaq mümkündür. Bu yolda ölkəmiz həm də təşəbbüsləri ilə gələcəyə işıq tutur. Mədəni müxtəliflik varsa, birlik var, harmoniya var. Azərbaycanın multikultural kimliyi isə bu birliyin, bu harmoniyanın gerçək simvoludur.

**Röya RÜSTƏMLİ,**
**"Respublika".**

Respublika .- 2025.- 21 may (№104).-